# Həsən Məcidzadə Savalanın əsərlərində xalq adət və ənənələrinin əksi

**Lətifə Mirzəyeva**
*AMEA Ədəbiyyat İnstitutunun böyük elmi işçisi*

Cənubi Azərbaycan şairləri yaradıcılıqlarının bütün dövrlərində Azərbaycan xalqına mənsub olan və əsrlərlə yaşayan milli adət-ənənələri özlərinin əsərlərində canlı lövhələrlə əks etdirmişlər. Bu da onların öz xalqına məhəbbətindən, adət-ənənələrinə hörmətlə yanaşmalarından və onları yaşatmaq istəyindən irəli gəlir.

1950-1980-ci illərdə yazıb-yaradan şairlərin əsərlərində xalq adət-ənənələrin əksi daha parlaq şəkildə özünü göstərmişdir. Onlar şah rejiminin bütün təzyiqlərinə, qadağalarına rəğmən azərbaycançılıq ideyaları ilə çıxış etməklə yanaşı xalqın adət-ənənələri ilə bağlı zəngin poeziya nümunələri meydana gətirmişlər.

Məhəmmədhüseyn Şəhriyarın, Həbib Sahirin, Məhəmmədəli Məhzunun, Haşım Tərlanın, Kərim Məşrutəçi Sönməzin, Həsən Məcidzadə Savalanın, Bulud Qaraçorlu Səhəndin, Yəhya Şeydanın, Müzəffər Dirəfşinin və başqalarının yaradıcılığında bu daha çox diqqəti cəlb edir.

H.M.Savalan xalqına qəlbən bağlı olan, xalqının tarixinə, mədəniyyətinə, ədəbiyyatına, məişətinə, adət-ənənələrinə dərindən bələd olan və ehtiram bəsləyən bir sənətkardır.

Xalqımızın lap qədim dövrlərdən gələn, el arasında yaşayan və sevilən çox gözəl milli bayramları vardır ki, onlardan biri də əməksevərliyi, nəcibliyi, rəhmliliyi tərənnüm edən Novruz bayramıdır. Novruz başdan-başa ruh yüksəkliyi, əmək coşqunluğu, torpağa, insana məhəbbət bayramıdır.

«XI əsr tarixçisi Nizam-Ül-Mülk özünün «Səyahətnaməsində Novruzu yazın gəlişi ilə bağlı kütləvi xalq bayramı kimi təqdim edir».[16]

Xalqımız Novruzu həmişə çox böyük ruh yüksəkliyi ilə qeyd etmişdir. Novruz şənlikləri dəbdəbədən çox təbiiliyi ilə səciyyəvidir. Bayram axşamı bacalardan torbalar sallanar, qapılara papaq atılar, xoş xəbər eşitmək üçün qapılar pusular, tonqallar yandırılar və uşaqların şən səsləri bir-birinə qarışar. O taylı – bu taylı Azərbaycanla yanaşı, Orta Asiya, Əfqanıstan, İran, Türkiyə və başqa ölkələrdə yaşayan yüz milyonlarla zəhmətkeş də hər il Novruzu özünün ən əziz bayramı kimi keçirir. Qədim dövrlərdən Novruzun dörd çərşənbəsindən biri olan Axır çərşənbə daha təntənəli keçirilərdi və indi də keçirilir. Axır çərşənbədə Novruz şirniyyatı bişirilir, xonça bəzədilir, tonqal qalanır, şam yandırılır və sair.

Novruz bayramı və Axır çərşənbə kimi əlamətdar günlər bir çox şairlərimizin qələmi ilə nəzmə çəkilmişdir. Novruz bayramı hələ XVIII-XIX əsrlərdə də tərənnüm edilib. Bu baxımdan XVIII əsr Azərbaycan poeziyasının ən qüdrətli siması Molla Pənah Vaqifin (1717-1797) 3 bəndlik «Bayram oldu heç bilmirəm neyləyim...» qoşması daha səciyyəvidir. Novruz bayramı gəlmişdir. Hər bir ailə olanından-olmazından süfrəyə düzüb baharın gəlişini gözləyir. Yalnız kənddə «məktəbdar» olan şair məgmundur:

*Bayram oldu heç bilmirəm neyləyim,*
*Bizim evdə dolu çuval da yoxdur.*
*Düyüylə yağ, hamı çoxdan tükənmiş,*
*Ət heç ələ düşməz, motal da yoxdur.*
*Xalq batıb noğula, şəkərə, qəndə*
*Bizim evdə axta zoğal da yoxdur.*[17]

H.M.Savalan da qızına müraciətlə yazdığı «Axır çərşənbə» şeirində həmin gün həyata keçirilən adət-ənənələri yada salmışdır:

*Axır çərşənbə gəldi ay mənim gözəl qızım,*
*Uca atıl alovdan ay yanağı qırmızım.*
*Qaç-qaç atıl, gəl səni bağrıma basım deyim,*
*Qulağına bir neçə tapşırığımla sözüm.*
*Bu xoş günlərimizdə gəl sevindir sən bizi*
*De, solğunum get daha, gəlsin mənə qırmızı.*[18]

---

[16] Nəbiyev A. Elin əziz bayramı. Novruz. Bakı, Yazıçı, 1989, s. 7.

[17] Molla Pənah Vaqif. Bayram oldu heç bilmirəm neyləyim… Əsərləri. Bakı, Azərnəşr, 1957, s. 102.

[18] Savalan H.M. Axır çərşənbə. Apardı sellər Saranı. /Hazırlayan S.Altaylı/, Ankara, Kultur və Turizm Bakanlığı, 1987, s. 24.

Uşaqların bir yerə yığışıb odla çilovğan etmələri, tonqal üstündən atılaraq «ağırlığım, xəstəliyim bu tonqalda yansın» demələri, küsülülərin barışdırılması, insanların bir-birləri ilə bayramlaşması, bayram şirniyyatlarından pay verilməsi, bu günün ən yadda qalan adətlərindəndir.

*Çoxlu gözəl mənalar daşır bizim ənənə*
*Qondarma iş deyil, bu doğma elindir yenə.*
*Dəblərimiz əzizdir, həm sənə, həm də mənə*
*Gəl, gülüm ilk baharda könlümü açım sənə*
*Bu xoş günlərimizdə gəl sevindir sən bizi*
*De, solğunum get daha, gəlsin mənə qırmızı.*[19]

Tonqal üstündən tullanaraq xəstəliyinin, ağrı-acılarının yanmasını arzulayan uşaqlardan fərqli olaraq Savalan tonqalda elini talan edən, xalqına əzab-əziyyət, işgəncələr verən, onu elindən-obasından didərgin salan düşmənin yanmasını arzulayır:

*Bu adətdir el içrə əski zamandan qalan*
*Bağrımıza bu dəbdir, azacıq sevinc salan*
*Bax, necə bu od yanır düşmənimiz də yansın*
*«Savalan»a söyləyin elin görməsin talan.*
*Bu xoş günlərimizdə gəl sevindir sən bizi,*
*De, solğunum get daha, gəlsin mənə qırmızı.*[20]

M.Şəhriyar da milli bayramlarımızı, adət-ənənələrimizi, həmişə yüksək qiymətləndirmiş, Novruz bayramının adətlərindən isə «Heydərbabaya salam» poemasında söz açmışdır.

*Bayram idi, gecəquşu oxurdu,*
*Adaxlı qız bəy corabın toxurdu,*
*Hər kəs şalın bir bacadan soxurdu,*
*Ay nə gözəl qaydadı şal sallamaq,*
*Bəy şalına bayramlığın bağlamaq.*

*Yumurtanı göyçək, güllü boyardıq,*
*Çaqqışdırıb sınanların sayardıq,*
*Oynamaqdan bizcə məgər doyardıq?*
*Əli mənə yaşıl aşıq verərdi,*
*İrza mənə novruzgülü dərərdi.*[21]

H.M.Savalan xalq naminə olan yenilikləri həmişə alqışlamış, insana xeyir gətirməyən, onun həyatına mənfi təsir göstərən köhnə adət-ənənələrin yaşamasından böyük narahatlıq keçirmişdir. O, «Bahar bayramı» poemasında deyir:

*Hər yeni il dəyişəndə,*
*Yenilik yer-göydən doğar.*
*Amma bizim elimizi,*
*Əski uydurmalar boğar.*

*Söz bura çatdı, qoy deyim,*
*Sabirə yüz rəhmət ola!*
*Həqqi deyib, qəbri onun,*
*Həşrə kimi nurla dola.*

*«Şən deyən olmayıb hələ,*
*Arxa su dolmayıb hələ.*
*Köhnədən çox əsər durur,*
*Rəngi də solmayıb hələ».*[22]

Yalnız Azərbaycan xalqının milli bayramları, o bayramlarda həyata keçirilən adət-ənənələr deyil, toy, yas mərasimləri də H.M.Savalanın həmişə diqqət mərkəzində olmuşdur. Tehranda bir Azərbaycan toyunda iştirak edən şairi həmin məclisdə gördükləri xəyalən Odlar yurduna aparır. Onun yaddaşı təzələnir. Min bir rəngli yaşıllıqlar, güllü-çiçəkli çöllər, gül toplayan qızlar, mərd igidlər, evdə xalça toxuyan əllər gözlərinin qarşısında canlanır. O, bütün bunları «Tehranda bir Azərbaycan toyu» əsərinə köçürmüşdür.

*Bu toy çəkib xəyalımı Od yurduna apardı,*
*Oğuz ləhcəsində şirin dillər düşdü yadıma.*

*Mənə dolu el şeirləri, bayatı, qoşma, qəzəl,*
*Bizim tarla, kamandakı tellər düşdü yadıma.*

*Göyə zirvəsi baş çəkən Savalan, qoç dağımdan,*
*Yaz çağı tökülüb daşan sellər düşdü yadıma.*[23]

---

[19] Savalan H.M. Axır çərşənbə. Apardı sellər Saranı. /Hazırlayan S.Altaylı/, Ankara, Kultur və Turizm Bakanlığı, 1987, s. 24.
[20] Yenə orada, s. 26.
[21] Şəhriyar M. Heydərbabaya salam. Əbədiyyət gülüyəm mən. (M.Şəhriyarın Azərbaycan dilində yazdığı əsərləri). /Tərt. ed. İ.Qəribli, E.Bağırova, Z.Zeynalova/. Bakı, «Elm və təhsil». 2017, s. 236, 238.
[22] Savalan H.M. Bahar bayramı. Sözdən asılan arzular. Güney Azərbaycan şairlərinin poemalarından seçmələr (XX əsr)/ Nəşrə hazırlayan E.Fuad (Şükürova). Bakı, Elm və təhsil. 2016, s. 440-441.
[23] Savalan H.M. Tehranda bir Azərbaycan toyu. Duyğu çiçkləri. I cild, Tehran, Fəhrəngi, 2005, s. 53.

Azərbaycan xalqının qədim el adət-ənənələrindən biri də əzizini yeni itirmiş – yaslı hesab edilən adamları bayram günlərində yasdan çıxarmaq, xətrini xoş etmək məqsədilə müəyyən sovqatlarla onları yad etməkdir. Lakin öz yurdunda yaşamağın mümkünsüzlüyü səbəbindən soydaşlarının Tehrana köçdükdən sonra doğma elin bu kimi adət-ənənələrini unudub, onlara yad olan insanların adət-ənənələrinə uyğunlaşmaları ilə şair barışa bilmir. O, xatirələrinin birində yazır:

«Bütün görüb tanıdığımız, eşidib anladığımız doğma yerlərimizdən, ulu yurdumuzdan olduq. Alışıb öyrəndiyimiz adət-ənənələrimizdən, qədim mədəniyyətimizdən ayrıldıq. Sanki hər şeyimizi itirdik.

Tehrana gəldikdən bir il sonra qışın son ayında anam yatmış kiçik yaşlı bacımı babama tapşırdı və mənim əlimdən tutub Tehranın bu başından o başına, yolun çoxunu ayaqla, qalan hissəsini isə bir-iki maşın dəyişməklə anamın bir bacılığının (xalamın) evinə qarşıdan gələn bayramlığa görə getdik ki, onlar yaslı olduğu üçün onları yasdan çıxardaq. Xalamgil bizdən neçə il qabaq yurdlarından didərgin düşmüşdülər. Tehrana tamamilə əliboş gəlmişdilər. Anam gəlinlik vaxtından saxladığı baş örtüyünü və bir balaca kəllə qəndi xalama verdi. Anamın onları yasdan çıxarmaq üçün uzaq yol gəldiyini bilib xalamgil ağlaşdılar. Xalam dedi:

«Ay Allah nə gözəl, nə yaxşı el dəyərlərimiz var imiş. Bu adət-ənənələrin hamısı yadımızdan çıxıb, yadırğamışıq. Bəli, bu Tehran bir-birindən gözəl olan adət-ənənələrimizi, mənəvi dəyərlərimizi əlimizdən alıb, onları bizə unutdurub, özgələrlə, yadlarla qaynayıb-qarışmışıq. Onların adət-ənənələrini götürmüşük. Tamamən boşluqda qalmışıq».[24]

H.M.Savalan xalqın yaxşı adət-ənənələrini yüksək qiymətləndirdiyi, onların yaşamasını istədiyi kimi pisləri də ciddi tənqid edir və onların ləğv edilməsini, yayılmamasını vacib bilir. Şair «Vicdan ağrısı» şeirində bir neçə il əvvəl oxuduğu bir əsərdə insanı dərindən düşünməyə, ömrünün əvvəlindən indisinədək gördüyü işləri, etdiyi əməlləri götür-qoy etməyə vadar edən məqamlarla rastlaşdığını vurğulayır:

*Gördüm o hekayədə*
*İncə, gözəl duyğunu.*
*İnsanı düşündürən*
*Çox sözü, bir də bunu.*
*«Anlamıram doğrusu*
*Nə qaydadır bizdə bu*
*Əlləri qan gölündə*
*Bir insan da öləndə*
*Eyni çələng toxunur*
*Xeyir dua oxunur».*[25]

Hələ bir çoxları da «qarğaya, quzğuna bülbül deyir».

*Belə işlər heç zaman*
*Yaramaz pak insana.*
*Ağır, ağırdı bunlar*
*Ruha, cana vicdana.*[26]

Şair ömrü boyu əzab-əziyyət çəkdiyini, əzildiyini, həyatda heç bir haqq-ədalət görmədiyini daha dərindən anladığını deyir. Bəzisi malını, pulunu, xalq yolunda xərcləsə də adı heç bir yerdə çəkilmir. Bəzisi isə bir gəlir yeri gördükdə ora qonur. Kişi odur ki, yaxşını yaxşı, pisi də pis kimi dəyərləndirsin. O, deyir ki, pisə də, yaxşıya olduğu kimi rəhmət oxumaq düz deyil.

H.M.Savalan kimi şair Qulamrza Məcdfər də insanlığa xas olmayan xüsusiyyətləri özündə əks etdirən adət-ənənələrdən uzaqlaşmağı tövsiyə edir və həmin mərasimləri kəskin tənqid edir. Onun «Novruz bayramı» şeirində xalqın şahənşahlıq dövründən başlayaraq davam edən istismar prosesi tənqid atəşinə tutulur.

*İki min beş yüz il fişar altında*
*Millətin qaməti sındı, büküldü.*
*Divanə şahların əlin öpməkdən*
*Xurd oldu qüruru, yerə töküldü.*[27]

Üzdə özünü səxavətli göstərib daxildə əslən xalqın qanını soran zülmkar şahın qarşısında bütün saray əhli baş əyib yaltaqlanır:

[24] Savalan H.M. Nələr gördüm bu dünyada. «Ana Varlıq", Tehran, 2017, say 5, s. 130.

[25] Savalan H.M. Vicdan ağrısı. «Apardı sellər Saranı». /Hazırlayan S.Altaylı/. Kultur və Turizm Bakanlığı, Ankara, 1987, s. 32.

[26] Yenə orada, s. 36.

[27] Məcdfər Q. Novruz bayramı. Qədimov Ə. Təbriz mətbuatı tarixindən: «Dədə Qorqud» və «Koroğlu» jurnalları ədəbi-tarixi yaddaşın işığında. Naxçıvan, Əcəmi, 2019, s. 138.